## Baltik ölkələrində sənaye qızdırıcı qazanlar bazarının tədqiqatı

Baltik ölkələrində sənaye qazanlarının bazarı bir-birinə sıx inteqrasiya etmişdir. Əsas səbəblərdən biri, bazarın həcmi kiçik olduğundan istehsalçıların hər üç ölkə üçün bir distrübyutor ofisi istifadə etməsidir. Digər səbəb son 10 il ərzində Estoniyanın liberal vergi siyasəti apardığı üçün kommersiya qurumları təsərrüfat fəaliyyətlərini Estoniyada qeydiyyatdan keçirib, lakin ofis və anbarları əsas müştərilər kütləsinin olduğu Latviya və Litvada icarəyə götürməsidir.

Baltik ölkələrində əsasən iki növ sənaye qazanlarından (qaz və ya maye yanacaqla işləyən) qazanlardan istifadə olunur, üçüncü növ isə qazanlar isə kombi tipli (qaz və dizel) sistemi ilə işləyir. Bu, istifadə edilən yanacağın ucuzluğu ilə bağlıdır. Qaz yanacağının geniş istifadə olunması, istilik enerjisi istehsalında qazın ən müasir, ən təhlükəsiz və ekoloji üsullardan biri sayılması ilə bağlıdır.

Sənaye qazanlarının bazarı Baltik ölkələrində oliqopol xarakter daşıyır (oliqopoliya – bazarın elə bir növüdür ki, bu cür bazarlarda sadəcə bir neçə dominant şirkət fəaliyyət göstərir). Bu şirkətlərin hər biri bazarın əhəmiyyətli payını tutur və qiymətlərin yaranmasına təsir edə bilir.

2019-cu ildə satış həcmləri ümumi iqtisadi meyllərdən asılı olaraq +/- 10%-ə qədər dəyişə bilər – bu, ilk növbədə, əhalinin gəlirlərinin səviyyəsi, maliyyə müəssisələri tərəfindən tikintiyə verilən kreditlərin həcmi, habelə qızdırıcı üçün istifadə edilən xammal qiymətlərindən asılı olacaqdır.

İstifadə olunmuş informasiya mənbələri və məlumatlar:

- Əsas istehsalçıların sorğusu və hesabatları;
- Rəsmi statistika.